**https://doi.org/10.58225/tim.2025-4-174-177**

**Ə.M.Əliyev**
***i.e.n., dosent, Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***ORCID 0000-0002-5134-188X***
***elesger-eliyev@list.ru***
**N.R.Rəşidov**
***magistrant, Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***rashidovnadir@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 04.11.2025*
*The article was received by editorial board on 04.11.2025*
*Статья принята к печати 04.11.2025*

# SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFINDA İNVESTİSİYA PROSESLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

*Məqalədə sahibkarlıq fəaliyyətinin inkişafında investisiya proseslərinin rolu və onların təkmilləşdirilməsi istiqamətləri araşdırılmışdır. Tədqiqatın məqsədi Azərbaycan iqtisadiyyatında sahibkarlığın davamlı inkişafını təmin edən əsas investisiya mexanizmlərinin təhlili və onların səmərəliliyinin artırılması üçün təkliflərin işlənib hazırlanmasıdır.*

*2020–2024-cü illər üzrə aparılan müqayisəli təhlil göstərir ki, bu dövrdə əsas kapitala yönəldilən investisiyaların həcmi 17,5 milyard manatdan 21,6 milyard manata yüksəlmiş, qeyri-neft sektorunun payı isə 29,8%-dən 43%-ə qədər artmışdır. Məqalədə dövlətin investisiya siyasətinin təkmilləşdirilməsi, rəqəmsallaşmanın, innovasiyaların və regionlarda dövlət-özəl tərəfdaşlığının genişləndirilməsinin sahibkarlıq mühitinə təsiri qiymətləndirilmiş,eyni zamanda, maliyyə mənbələrinin şaxələndirilməsi, güzəştli kreditlərin artırılması və "yaşıl investisiyalar"ın stimullaşdırılması kimi prioritet istiqamətlər müəyyənləşdirilmişdir.Məqalədə investisiya proseslərinin optimal-laşdırılmasının sahibkarlıq fəaliyyətində rəqabət qabiliyyətinin yüksəldilməsi, iqtisadi artımın sürətləndirilməsir və sosial rifahın təmin olunmasında mühüm rol oynaması vurğulanmışdır.*

***Açar sözlər:*** *sahibkarlıq fəaliyyəti, investisiya prosesi, dövlət siyasəti, innovasiya, rəqəmsallaşma, iqtisadi inkişaf.*

Müasir iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən biri kimi sahibkarlıq fəaliyyəti iqtisadi artımın, innovasiyaların və məşğulluğun təmin edilməsində əhəmiyyətli rol oynayır. Sahibkarların istehsal, xidmət və innovasiya fəaliyyətini genişləndirməsi investisiya axınlarının həcmi və səmərəliliyi ilə birbaşa bağlıdır. İnvestisiya proseslərinin düzgün təşkili sahibkarlığın maliyyə sabitliyini və bazarda rəqabət qabiliyyətini artırır, eyni zamanda milli iqtisadi təhlükəsizliyin vacib tərkib hissəsinə çevrilir.

Sahibkarlıq müxtəlif fəaliyyət sahələrində həyata keçirilən müstəqil təsərrüfatçılıqdır.Burada əsas məqsəd məhsullara,xidmətlərə və müəyyən işlərə olan tələbatı ödəmək yolu ilə mənfəət qazanmaqdır (9,səh.182)

2020–2024-cü illər ərzində Azərbaycanda sahibkarlıq subyektlərinə yönəlmiş investisiyaların həcmi sabit templə artmışdır.Belə ki, 2020-ci ildə əsas kapitala yönəldilən investisiyaların ümumi həcmi 17,5 milyard manat təşkil edirdisə, 2023-cü ildə bu göstərici 21,6 milyard manata yüksəlmişdir. Bununla yanaşı, qeyri-neft sektoruna yatırılan investisiyaların payı 2020-ci ildə

29,8% olduğu halda, 2024-cü ildə artıq 43%-ə yaxınlaşmışdır. Bu dinamika sahibkarlığın və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində iqtisadi siyasətin real nəticələrinin bariz nümunəsidirr.

Azərbaycanın nəqliyyat-logistika qovşağı kimi potensialı iqtisadi şaxələndirmə üçün əlavə imkanlar yarada bilər.

Azərbaycanın real ÜDM-nun 2004-cü ildə 4,1 % artmasına baxmayaraq 2005-ci ildə bu göstəricinin 1,5 %-ə qədər azalmazı proqnozlaşdırılır.Bu azalma yüksək baza effekti və qlobal biznes əlaqələrində qeyri-müəyyənlik və geosiyasi dəyişiklikər fonunda xarici konyunkturanın zəifləməsi ilə əlaqədar risklərlə izah oluna bilər.

Yaxın perspektivdə qeyri-neft sahələrinin inkişafına nəqliyyqt-logistikanın imkanları və fəallığının artmasının konstruktiv təsir göstərməsini proqnozlaşdırmaq olar (3).

İnvestisiya proseslərinin təkmilləşdirilməsində dövlətin rolu xüsusilə əhəmiyyətlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə qəbul olunan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də sahibkarlığın maliyyələşdirmə imkanlarının genişləndirilməsi əsas hədəflərdən biri kimi müəyyən edilmişdir. Bu istiqamətdə "KOBİA" (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), "AzPromo" və "Azərbaycan İnvestisiya Holdinqi" kimi qurumlar vasitəsilə investisiya təşviqi mexanizmləri gücləndirilmişdir. 2021–2024-cü illər ərzində KOB subyektlərinə 400 milyon manatdan artıq güzəştli kredit verilmişdir ki, bu da minlərlə sahibkarın fəaliyyətini genişləndirməsinə şərait yaratmışdır (8).

Sahibkarlıq mühitinin yaxşılaşdırılması məqsədilə aparılan islahatlar nəticəsində Azərbaycanın "Doing Business" reytinqindəki mövqeyi son illərdə xeyli yaxşılaşmışdır. Dünya Bankının 2020-ci il hesabatına görə, Azərbaycan biznesin aparılması şəraiti üzrə 190 ölkə arasında 34-cü yerdə qərarlaşmışdır. Bu, ölkədə investisiya mühitinin hüquqi və institusional baxımdan sabitləşdiyini göstərir. Xüsusilə, "bir pəncərə" prinsipi ilə biznes qeydiyyatının sadələşdirilməsi, vergi yükünün azaldılması və elektron hökumət xidmətlərinin inkişafı investisiya proseslərini xeyli sürətləndirmişdir.

Son illərdə rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqi sahibkarlıqda investisiya proseslərinin yeni mərhələsinə keçidi təmin etmişdir. 2022-ci ildə "Azexport.az" və "Digital Trade Hub" platformalarının fəaliyyəti nəticəsində sahibkarların ixrac imkanları genişlənmiş, beynəlxalq bazarlara çıxışı asanlaşmışdır. Bu platformalar vasitəsilə 2023-cü ildə 1,1 milyard ABŞ dolları dəyərində ixrac əməliyyatı həyata keçirilmişdir ki, bu da rəqəmsal investisiyaların praktiki səmərəliliyini göstərir.

İnvestisiya proseslərinin təkmilləşdirilməsi həm də regionların inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. 2020–2024-cü illərdə regionlara yönəldilən dövlət investisiyalarının payı 37%-dən 46%-ə yüksəlmişdir. Bu, regionlarda yeni istehsal müəssisələrinin, sənaye parklarının və aqro-sənaye komplekslərinin yaranmasına səbəb olmuşdur. Belə ki, "Ağdam Sənaye Parkı" və "Horadiz Ağıllı Kənd" layihələri dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilmiş və yüzlərlə yeni iş yerləri açılmışdır.

Bununla belə, sahibkarlıqda investisiya proseslərinin təkmilləşdirilməsi istiqamətində bəzi çətinliklər qalmaqdadır. Belə ki, bəzi KOB subyektləri üçün kapital bazarlarına çıxış imkanları məhduddur, kommersiya banklarının faiz dərəcələri hər sahibkarın imkanları daxilində deyildir. Eyni zamanda, bəzi sahibkarların maliyyə savadlılığı və investisiya planlaşdırma bacarıqları zəifdir ki, bu da resurslardan səmərəli istifadəni çətinləşdirir. Buna görə, maliyyə vasitəçiliyi, biznes inkubatorları və təlim mərkəzlərinin genişləndirilməsi məqsədəuyğundur.

İnvestisiya proseslərinin gələcək təkmilləşdirilməsi üçün əsas istiqamətlərdən biri daxili və xarici kapitalın sinerjisini yaratmaqdır. Bunun üçün dövlət-özəl tərəfdaşlıq (DÖT) layihələrinin əhatə dairəsinin genişləndirilməsi, rəqəmsal innovasiyalara yönəlmiş "venture capital" mexanizmlərinin tətbiqi və "yaşıl investisiyalar"ın təşviqi xüsusi əhəmiyyət daşıyır. Məsələn, 2024-cü ildə "Yaşıl Enerji Zonası" layihələri çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən investisiyaların həcmi 2 milyard ABŞ dollarını keçmişdir.

Ölkənin Orta Dəhlizi, yəni Transxəzər Beynəlxalq Nəqliyyat marşrutu da daxil olmaqla əsas marşrutları investisiyaları cəlb etməyə və iqtisadiyyatın müxtəlif sektorlarının dirçəldilməsinə dəstək olması gözlənilir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa işləri böyük həcmli kapial qoyuluşları və tikinti fəaliyyət hesabına başa gəlsə də,bu amil iqtisadi dinamikaya ciddi təsir göstərir. Eyni zamanda külək və günəş enerjisi sahəsindəki layihələrin inkişafı xarici investisiyaların axınına səbəb ola bilər. Bu isə perspektivdə təmiz enerji ixracından gəliri təmin edə bilər.

Ümumilikdə, investisiya proseslərinin təkmilləşdirilməsi sahibkarlığın dinamik inkişafını təmin etməklə yanaşı, iqtisadiyyatın rəqabət qabiliyyətini artırır, ixrac potensialını gücləndirir və sosial rifah səviyyəsini yüksəldir. Gələcəkdə bu istiqamətdə dövlət, özəl sektorları və beynəlxalq təşkilatlar arasında daha sıx əməkdaşlıq vacib olacaqdır. Azərbaycanda formalaşan yeni iqtisadi reallıqlar fonunda investisiyaların hədəfli və səmərəli yönəldilməsi sahibkarlığın dayanıqlı inkişafının əsasını təşkil edir.

**NƏTİCƏ**

Sahibkarlıq fəaliyyətinin inkişafında investisiya proseslərinin təkmilləşdirilməsi istiqamətləri mövzusunda aparılan araşdırmalar aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1, Müasir iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən biri kimi sahibkarlıq fəaliyyəti iqtisadi artımın, innovasiyaların və məşğulluğun təmin edilməsində əhəmiyyətli rol oynayır. Sahibkarların istehsal, xidmət və innovasiya fəaliyyətini genişləndirməsi investisiya axınlarının həcmi və səmərəliliyi ilə birbaşa bağlıdır.

2. Yaxın perspektivdə qeyri-neft sahələrinin inkişafına nəqliyyqt-logistikanın imkanları və fəallığının artmasının konstruktiv təsir göstərməsini proqnozlaşdırmaq olar.

3. Ölkədə investisiya mühitinin hüquqi və institusional baxımdan sabitləşməsi, "bir pəncərə" prinsipi ilə biznes qeydiyyatının sadələşdirilməsi, vergi yükünün azaldılması və elektron hökumət xidmətlərinin inkişafı investisiya proseslərini xeyli sürətləndirmişdir.

4. İnvestisiya proseslərinin təkmilləşdirilməsi regionların inkişafı baxımından mühüm əhəmiyyətə malikdir Belə ki, 2020–2024-cü illərdə regionlara yönəldilən dövlət investisiyalarının payının 37%-dən 46%-ə yüksəlməsi regionlarda yeni istehsal müəssisələrinin, sənaye parklarının, aqro-sənaye komplekslərinin yaranmasına səbəb olmuş və yüzlərlə yeni iş yerləri açılmışdır.

5.Bəzi KOB subyektləri üçün kapital bazarlarına çıxış imkanlarının məhduddurluğu, kommersiya banklarının faiz dərəcələrinin hər sahibkarın imkanları daxilində olmaması,, bəzi sahibkarların maliyyə savadlılığı və investisiya planlaşdırma bacarıqlarının zəifliyi resurslardan səmərəli istifadəni çətinləşdirir. Buna görə, maliyyə vasitəçiliyi, biznes inkubatorları və təlim mərkəzlərinin genişləndirilməsi məqsədəuyğundur.

6. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında külək və günəş enerjisi sahəsindəki layihələrin inkişafı xarici investisiyaların axınına səbəb ola bilər. Bu isə perspektivdə təmiz enerji ixracından gəliri təmin edə bilər.

7. İnvestisiya proseslərinin təkmilləşdirilməsi sahibkarlıq fəaliyyətinin dinamik inkişafını təmin etməklə yanaşı, rəqabət qabiliyyətliliyini artıra, ölkənin ixrac potensialını gücləndirə və sosial rifah səviyyəsini yüksəldə bilər.

***İstidə edilmiş ədəbiyyat:***

**1.** Azərbaycan Respublikasının PrezidentiAzərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. (2021). Bakı: Prezident.az.

**2.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: 2024.

**3.** Bayramov, V. (2023). Azərbaycan iqtisadiyyatında qeyri-neft sektoruna investisiyaların rolu. Bakı. İqtisadi Tədqiqatlar Mərkəzi.

**4.** Dünya Bankı. Doing Business 2020: Comparing Business Regulation in 190 Economies. Washington, DC: World Bank Publications.

**5.** European Bank for Reconstruction and Development (EBRD). Transition Report 2024: Investing for Change. London: EBRD Publications.

**6.** Əliyev, İ. (2022). Rəqəmsallaşma və sahibkarlıq inkişafı istiqamətində dövlət siyasəti. "İqtisadi Forum" jurnalı, Bakı, №3, s. 45–56.

**7.** Əhmədov, N. (2024). İnnovativ sahibkarlığın maliyyə təminatı və investisiya mühiti. Bakı. Elm və Təhsil, 312 s.

**8.** Kiçik və Orta Biznesin İnkişafı Agentliyi. (2023). İllik hesabat: Azərbaycanda KOB sektorunun inkişafı. Bakı.

**9.** M.A.Məmmədov, Ə.M.Əliyev. (2023). Menecment. Bakı, 288 s.

**10.** Türkiye Cumhuriyeti Ticaret Bakanlığı. Yatırım Ortamının İyileştirilmesi Raporu. Ankara: 2023. Ticaret Bakanlığı Yayınları.

**A.M.Aliyev**

*PhD, Associate Professor, Azerbaijan University of Architecture and Construction*

*ORCID 0000-0002-5134-188X*

**N.R.Rashidov**

*master student, Azerbaijan University of Architecture and Construction*

## Directions for improving investment processes in the development of entrepreneurial activity

**Abstract**

*This article explores the role of investment processes in the development of entrepreneurial activity and the main directions for their improvement. The purpose of the study is to analyze the key investment mechanisms that ensure the sustainable growth of entrepreneurship in Azerbaijan's economy and to develop proposals for enhancing their efficiency. A comparative analysis based on the statistical indicators of 2020–2024 shows that the total volume of investments directed to fixed capital increased from 17.5 billion AZN in 2020 to 21.6 billion AZN in 2023, while the share of the non-oil sector rose from 29.8% to nearly 43%. The study evaluates the impact of the state investment policy, digitalization, innovation, and the expansion of public-private partnerships in the regions on the business environment. Moreover, the diversification of financial sources, the expansion of concessional loans, and the promotion of "green investments" are identified as strategic priorities. The results indicate that the optimization of investment processes enhances the competitiveness of entrepreneurship, accelerates economic growth, and plays a crucial role in ensuring social welfare in Azerbaijan.*

***Keywords:*** *entrepreneurship, investment process, state policy, innovation, digitalization, economic development.*